*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 307-314*

https://doi.org/10.62837/2025.10.307

**AYNUR ŞIRIN QIZI MIRZƏYEVA**
**Azərbaycan Dövlət İqtisad Universiteti**
**Xarici dillər kafedrasının baş müəllimi**
**azeri_0704@yahoo.**

# QARABAĞIN TARİXİ, İCTİMAİ SİYASİ VƏZİYYƏTİ VƏ ETNİK TƏRKİBİ

**Xülasə**

Qarabağın onomastikası, tarixi, ictimai-siyasi vəziyyəti və etnik tərkibinin öyrənilməsi, Azərbaycanın dilçi və tarixçi alimləri qarşısında duran vacib məsələlərdəndir.Dünyanın diqqət mərkəzinə çevrilən, Azərbaycanın gözü olan “Qarabağ”tarixi vilayətlərdən biridır. Tarixi Qarabağ Quzey Azərbaycanda yaranmış ilk dövlət qurumu - Qafqaz Albaniyasının tərkibində olmuşdur Qarabağın adı Azərbaycan dilindəki "qara" və "bağ" söz birləşməsindən əmələ gəlmişdir. Qarabağın tarixi adları “Uti”, “Arran” (“Ərran”) və “Aran” olmuşdur. Qarabağda yerləşdirilmiş ermənilərin haqqında alimlərin fikirləri göstərilmiş və sübut edilmişdir ki, ermənilər sonralar bu torpaqda yerləşdirilmişdir. Qarabağın tarixi, mədəniyyəti olduqca qədimdir .

**Açar sözlər: Azərbaycan, toponimlər , Qarabağ , Qarabağın tarixi, etnik tərkibi**

Giriş. “Qarabağ”söz birləşməsinin etimologiyası, tarixi, əraziləri haqqında müxtəlif yanaşmalar var. “Qarabağ” sözünün etimologiyasına gəlincə, o, sıx, çox, geniş, şuluq, qarışıq, izdihamlı, qara rəngli mənalarında olan sırf türk sözləri “qara”/”qərə” və ağaclıq, bağ, bostan, çəmənlik, çiçəklik mənalarında olan “bağ” sözlərinin birləşməsindən ibarətdir. Qarabağ adı o məntəqələrə verilir ki, ərazisi sıx və geniş meşəli olsun və ağacların sıxlığından meşənin rəngi qaraya çalsın. İstər Azərbaycanda, istərsə də İranda və digər dilli və hətta qeyri-türkdilli ölkələrdə bu adda çoxlu toponimlər mövcuddur ( 1). İ.Məlikov göstərir ki, qara sözünün rəng bildirməkdən başqa, türk dillərində, o cümlədən Azərbaycan dilində “böyük”, “təmiz”, “şimal”, “torpaq”, “ordu”, “tayfa” (xalq), “kütlə” və s. mənaları da olmuşdur. “Tayfa”, “xalq”, “kütlə” qara sözünün ən qədim mənalarındadır və “ordu”, “qoşun” mənası də məhz bu mənadan törəyəndir ( 2 , s. 88, 189, 190).

X. Xəlilov qeyd edir ki,“Qarabağ”ölkədə “qara üzüm” yetişdirildiyindən və yaxud ölkədə guya “qara yarpaqlı” bağlar olduğundan ona Qarabağ deyilmişdir ( 3, s.93, 94). R.Yüzbaşov qara sözünün vaxtilə “rəng”, “ağır”, “qərb”, “böyük”, “qoçaq”, “sıx”, “qalın”, “çoxluq” və s. mənasında işləndiyini qeyd edir və göstərir ki, Qarabağ sozündəki qara sozü sıx, qalın, çoxlu bağı olan şəhər mənasını daşıyır ( 4, s. 135, 136). Verilmiş etimoloji nəticələrə əsasən, deyə bilərik ki, Qarabağ boyuk əraziyə malik diyar olmaqla bərabər , böyük tayfalara malik , tarixi vilayətdir. Qarabağ adlı tayfanın olması haqqında məlumat verilir. Azərbaycanın ən qədim

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri №10, 2025*
*Səh. 307-314*

məkanlarından olmaqla bərabər, azərbaycanlıların yaşayış məskəni olduğu sübuta yetirilmişdir.

Rusiya tərəfindən dəstəklənən - erməni faşistləri doğma Qarabağa, tariximizə, mədəniyyətimizə, həmişə göz dikmiş, işğalçı siyasət yeritmişlər.Azərbaycanın gözü olan Qarabağın tarixi, etnik tərkibinin tədqiqi aktual məsələlərdəndir.”Qarabağ” söz birləşməsinin tarixi əraziləri haqqında müxtəlif yanaşmalar var. Azərbaycan, erməni və digər alimlərin“Qarabağ “haqqında tədqiq etdiyi əsərlərdən nümunələr verilərək, elmi cəhətdən təhlil ediləcəkdir. L.Qumilev qeyd edirdi ki, nəhəng bir əraziyə malik olan qədim türk xalqlarının tarixinin öyrənilməsinin müəyyən obyektiv səbəbləri vardır.Türk xalqlarını bir-birindən təcrid etmək, onların qədim dövlətə, mədəniyyətə malik olduğunu göstərməmək, yeni yaranmış nəslin dünyagörüşündə bu qədim xalqın qədimliyinin tarixi köklərinə aid baxışların dərin kök atmasına yol verməmək Sovet milli siyasətinin başlıca tendensiyalarından biri idi. Çünki vaxtilə çox böyük ərazidə yaşayan və əsrlər boyu bu ərazilərdə türk mədəniyyəti və tarixinin qalıqlarını sübut edən xalqın böyüklüyünü, mənəvi zənginliyini qəbul etmək imperiyanın milli siyasətinə qətiyyən uyğun gəlmirdi (5, s.3). Lev Qumilev Sovet imperiyasının türk xalqlarına, sanki azərbaycanlılara qarşı qeyri-obyektiv münasibəti göstərmiş,, erməniləri dəstəkləyərək doğma yurdlarından - Qərbi Azərbaycandan, Qarabağdan qovaraq, ərazilərinə yiyələnmiş, toponimlərimizin adları dəyişdirilmiş, tarixdə analoqu olmayan vəhşiliklər etmiş ermənilərə şərait yaratmışdır. K.Şükürov yazır:” Faktlar göstərir ki, ermənilərin Azərbaycan torpaqlarına iddialarının kökləri V əsrdən formalaşdırılmağa başlayır. Bu iddialar içərisində Dağlıq Qarabağın xüsusi olaraq ayrılması, əsasən XVIII əsrin əvvəllərindən genişlənir. Təxminən üç əsrlik təbliğat və təcavüzkar fəaliyyət XX əsrin sonlarında Dağlıq Qarabağ ətrafında yeddi rayonun işğalı ilə nəticələnib” ( 6, s.155,159). K. Şükürovun tədqiqatına əsaslanaraq deyə bilərik ki, erməni işğalçılarının doğma Qarabağımızın torpaqlarına ərazi iddiaları,hələ v əsrdən başlamış üç əsrə qədər davam etmişdir. Faktlar göstərir ki, ermənilərin öz torpaqları olmamış, gözləri, həmişə Azərbaycanın dilbər guşəsi olan Qarabağın ərazisində olmuşdur.Qarabağın tarixinin öyrənilməsi tarixçi alimlərin diqqət mərkəzində olmuş, erməni alimlərinin saxtalaşdırdığı Qarabağ ərazisinə , müstəqillik dövründə reallıq nöqteyi nəzərindən yanaşılmış, bir çox tədqiqat əsərləri yazılmışdır.

Tarixi Qarabağ hələ əski vaxtlardan Quzey Azərbaycanda yaranmış ilk dövlət qurumu – Qafqaz Albaniyasının (m.ö.4-cü yü- zillikdən 8-ci yüzilliynə qədər) tərkibində olmuşdur. Yunan, latm, alban, ərəb, bizans, çin, gürcü, erməni-hay, şiryani və s. mənbələrinə görə, bu məmləkət Kür və Araz çaylan arasmda yerləşib, Qafqaz Albaniyası antik dövrdə bütün Aran və dağhq ərazini əhatə edirdi. Qüdrətli Albaniya dövləti isə əksəri əski türk ləhcəsində danışan 26 (son məlumatlara görə, 28) tayfanı birləşdirərək onlann vahid ittifaqından yaranmışdır (7,s. 11,12).

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 307-314*

Tarixdə həmişə “Dağlıq Qarabağ”deyil, bütöv halda, yəni Qarabağın bütün ərazisini - dağlarını, düzənlərini əhatə edən ümumi bir “Qarabağ”anlayışı olmuşdur.“Dağlıq Qarabağ” anlayışı çox sonraların məhsuludur, separatçılıq niyyətiilə Qarabağın bir hissəsinə verilmiş addır. Adicə məntiq də bunu sübut edir: Əgər Dağlıq Qarabağ varsa, deməli, düzən və ya aran Qarabağ da var! Reallıqda belədir: bu gün Azərbaycanda həm Dağiq Qarabağ var, həm də Aran Qarabağ (yəni düzən Qarabağ)! Özü də həm düzən (aran), həm də dağlıq Qarabağ həmişə, bütün tarixi dövrlərdə bir xalqın - Azərbaycan xalqının vətəni olmuşdur. (8, s,12). Qəhrəmanlar yurdy, muğam, sənət beşiyi – Qarabağ Quzey Azərbaycanda ilk dövlət qurumu, böyük əraziyə malik, 28 tayfanı birləşdirən qədim Azərbaycan torpağıdır.

Qarabağın etnik tərkibi haqqında məlumat verərkən eramızın təxminən I minilliyində mövcud olmuş etnik vəziyyəti əsas tuturlar. Ona görə ki, Azərbaycan xalqının yaranması və formalaşması prosesi məhz bu minilliyin daxilində başa çatmışdır. Başqa sözlə desək, bu minillikdə yaşamış tayfalar Azərbaycan xalqının soykökünü təşkil edirlər Eramızın I minilliyində yaşamış və xalqımızın etnogenezində iştirak etmiş tayfaların bəzilərinin kökləri eradan əvvəlki minilliklərdəki etnik birləşmələrlə bağlıdır (9, s. 58 ).Verilmiş nümunələrdə Albaniyanın tərkib hissəsi, geniş ərazilərə malik- Qarabağ bütün tarixi dövrlərdə , ancaq Azərbaycan xalqına məxsus olmuşdur.Azərbaycan Albaniyası və Atropatena dövlətlərinin meydana gəlməsindən (e.ə.ıv əsr) xeyli sonra, e.ə.II əsrdə ermənilər də Kiçik Asiyada, Van gölünün sahillərində özlərinin kicik bir dövlətlərini qura bildilər.Bu dövlət heç bir ciddi rola malik olmamış, yalnız e. ə. I əsrin 80- çı illərində güclənmiş və bir sıra qonşu əraziləri, o cümlədən, Atropatenanı və Azərbaycan Albaniyasının bir hissəsini zəbt etmişdir. Bu vəziyyət təxminən 10 il davam etmişdir. Bu erməni dövləti e.ə. 66 – cı ildə Roma qoşunlarının zərbələri altında darmadağın oldu. Ermənilər yenidən Van gölünün ətrafına qayıtdılar. Bu hadisələrdən sonra ermənilərin öz dövlətini yaratmaq cəhdlərinə son qoyulur ( 10, s.5.) Məlum olur ki, ermənilərin özünə aid torpağı olmamış, ancaq qonşu ərazilərdə özünə torpaq axtarmış, sonralar himayədarları vasitəsilə cənnət Qarabağımıza göz dikmişdir. M.Abeqyan ermənilərin keçmişi haqqında belə bir nəticəyə gəlmişdir ki, erməni xalqının mənşəyi nədir, onlar necə və nə vaxt, haradan və hansı yollarla bu yerlərə gəlmişlər, erməni olmamışdan əvvəl və sonra hansı tayfalarla əlaqədar olmuşlar, onların dilinə və etnik tərkibinə kim necə təsir göstərib? Bizim əlimizdə bu məsələləri təsdiq edən mötəbər və dəqiq dəlillər yoxdur. Abeqyan da, ermənilərin köç nəticəsində Kiçik Asiyaya gəlmələri haqda söylənilən fikirlərə şərik çıxır:.Ermənilərin əcdadları bizim eradan çox əvvəl Avropada, yunan və frakiyalıların əcdadlarının yaxınlığında yaşayırdılar. Onlar oradan Kiçik Asiyaya keçmiş, güman olunur ki, bir müddət friqiyalılarla qonşuluqda yaşamışlar(11)..Erməni xalqının mənşəyi məlum deyildir. .Gülüstan, Türkmənçay müqaviləsindən sonra Rus faşistlərinin dəstəyi ilə yerləşdirilmişdilər..Eramızın I

minilliyinə aid mənbələrdə Kürdən cənubdakı ərazidə yalnız alban, sak, qarqar, sode və uti adlarıı ilə məlum olan tayfalar haqqında məlumat verilir.Qarabağda erkən və orta əsrlərdə türkdilli Aran, Tərtər,Donqar, Peçenek, Hun, Qoros (Xoros), Vərəndə, Tuğ və digər tayfalar yaşamışlar. (Qarabağın köklü əhalisi türkdilli -- qarqarlar, hunlar, qoroslar, peçeneklər, qıpçaklar və xəzərlər idi. Burada həmişə azərbaycanlıların ulu babaları yaşamışlar.Əhalisi Qafqazdilli tayfalar və ya da ermənilər olmamışlar(9,s..58, 126,129) I minilliyə aid mənbələrdə Kürdən cənubdakı ərazidə ən qədim türk tayfaları yaşamışlar. Toponimlərin adı təsdiq edir ki, Qarabağ Azərbaycan torpağıdır. Qarabağda erkən və orta əsrlərdə türkdilli tayfalarının yaşaması göstərir ki, Qarabağ Azərbaycanın ən qədim yaşayış məskənidir.

Qarabağ bəylərbəyliyinin ərazisi – Kür və Araz çayları arasında qərbdə Samxet dağları və Göyçə gölünə kimi uzanan olduqca geniş bir ərazini təşkil edirdi. Bəylərbəyliyin tərkibinə Bərdə şəhəri, Aqstabad (indiki Ağstafa), Bərgüşad, Arazbar, Cavanşir və başqa mahallar daxil idi. Qarabağ bəylərbəyliyi vəzifəsinə adətən Səfəvilərin hakimiyyətə gəlməsinə kömək edən qızılbaş tayfalarından biri – Qacar tayfafsından olan Ziyadoğulları nəslinin nümayəndələri təyin olunurdu.(12, s.27). .Nümunələrdə verilmiş toponimlərin, etnonimlərin, hidronimlərin adları erməni faşistlərinə sübut edir ki, Qarabağ Azərbaycan xalqına məxsusdur.

1747-ci ildə Nadir şah Əfşarın ölümündən sonra Cavanşir sülaləsindən olan Pənahəli xan Qarabağ xanlığının əsasını qoymuşdu.Pənah xanın etnik kimliyinə gəlincə: D.Babayan əvvəlcə Pənah xanın azərbaycanlı olmadığını iddia edir, sonra bunu əsaslandırmaq üçün belə bir “elmi” tərif irəli sürür ki, güya azərbaycanlılar üçün qrup kimliyinin əsasını tayfa anlayışı təşkil etmiş, Pənah xanın da “monoetnik olmayan” Cavanşirlərdən olmasını əsas kimi götürərək, onun “milli mənsubiyyətinin olmadığı” kimi bəsit və sxematik bir tezis ortaya qoyur. D.Babayanın fikrincə, məhz “milli mənsubiyyəti olmadığına” görə, məliklər Pənah xanı da xan vəzifəsinə namizəd kimi seçməkdə yanılmayıbmışlar: D.Babayan Pənah xanın “həqiqətən də qeyri-adi bir şəxs” olduğunu vurğulayır.D.Babayanın vardığı və “elmi” hesab etdiyi absurd nəticə bundan ibarətdir ki, məliklər öz siyasi planlarını böyük uğurla gerçəkləşdirə bilmiş və yaratdıqları “erməni dövləti” olan Qarabağ xanlığını Rusiyaya birləşdirməyə nail olmuşdular(13)..Nadir şahın ölümündən sonra Qarabağda müstəqil Azərbaycan dövləti Qarabağ xanlığı yarandı..Qarabağda türklərin varlığını büsbütün inkar edən Stepan Dadayan isə türk etnosunun “izlərinin” yalnız Qarabağ xanlığının yaradılmasından sonra müşahidə olunduğunu yazır (14, s..45, 50).Tarixi qədimlik təsəvvürünə görə, ermənilərin Böyük Ermənistan hesab edilən həqiqi vətəni Rusiya hüdudlarından kənarda, daha doğrusu Kiçik Asiyada yerləşir. Dağlıq Qarabağda yaşayan ermənilərə gəlincə, onların bir hissəsi aborigen olub, xristian dinini qoruyub saxlayan qədim albanların nəslindəndir..Göstərilən tədqiqatlardan məlum olur ki, ermənilər Kiçik Asiyada yaşayıb , ermənilərin və friqiyalıların qohumluğu, tamamilə mümkün hesab

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 307-314*

edilir.Ermənilər tərəfindən yurdu dağıdılmış, erməni vəhşiliyinin şahidi olmuş Q.Çaxmaqlı.”Ermənilik İrqi düşüncənin fəsadları ermənilərin mənşəyi”adlı əsərində qeyd edir ki, Ermənilərin tarixdə .heç bir dövrdə tam müstəqil dövlətləri olmamış, .ermənilərin ideyaları nümunələrdə əksini tapmışdır..“Dünyanın və bizim qonşuların hamısından üstünük, həm də mədəniyik, bizim qonşular – türklər ( ərəblər, farslar, gürcülər, livanlılar və s.) köçəridirlər, vəhşidirlər, buna görə də bizi hər zaman məhv etmək istəyiblər.Biz məcburuq bəzi xalqları, ilk növbədə türkləri məhv etmək yolunu seçmişik. Və doğma erməni torpaqlarımızı Türklərdən azad edəcəyik..Qərbi Ermənistanı onların əlindən mütləq alacağıq. Biz güclü dövlət qurub nəhayət,bütün erməni xalqının arzularını yerinə yetirəcəyik.”.Dənizdən dənizə Böyük Ermənistanı”(Aralıq dənizi, Qara dəniz və Xəzər dənizi arasında olan torpaqlar) quracağıq (15, s.18 ,37 ).

Misallardan aydın görünür ki, ermənilər , torpağı olmadığından , türklərin ərazilərində özlərinə minlərlə insanın qanı bahasına Rusiyanın əliylə sığınacaq tapmışdılar. Üç əsrə qədər Azərbaycan torpağı uğrunda mübarizə aparıb nail ola bilməmişlər.

Qarabağ əvvəlcə Alban dövlətinin tərkibinə daxil olmuş, sonra bütün Azərbaycanla birlikdə ərəb xilafətinin əsarəti altına düşmüş, ərəb imperiyasının süqutundan sonra -Eldəgizlər, XIII əsrin ikinci yarısından XIV əsrə qədər Hülakülər (Elxanilər) dövlətinin, XV əsrdə Qaraqoyunlu və Ağqoyunlu dövlətlərinin tərkibinə daxil olmuşdur (9, s.8).

İ..Əliyev qeyd edir ki, Kürəkçay, Gülüstan, Türkmənçay sülh müqavilələrindən sonra ermənilər bizim dədə-baba torpaqlarımıza gətirildi. Məqsədyönlü şəkildə gətirildi və ölkəmizin ən dilbər guşələrindən biri olan Qarabağda yerləşdirildi, onlara şərait yaradıldı. Məqsəd aydın idi - imperiyanın yeni torpaqlarında dini tərkibi dəyişdirmək, müsəlmanları öz dədə-baba torpaqlarından qovmaq, didərgin salmaq və yeni reallıq yaratmaq idi. Bu idi məqsəd və əfsuslar olsun ki, bu məqsədə çatdılar. Ondan sonra erməni əhalisi qonşu ölkələrdən kütləvi qaydada gətirildi.Dağlıq Qarabağ bölgəsində, azərbaycanlıların dədə-baba torpaqlarına yerləşdirildi və ermənilər onlara xas olan xasiyyəti nümayiş etdirərək yavaş-yavaş bizim bütün torpaqlarımıza sahib çıxmağa başladılar (16).İ.Əliyev çıxışında qədim Azərbaycan torpağına ermənilərin hansı məqsəd üçün gətirildiyini real faktlar əsasında təhlil etmişdir. (1826-1828).Qarabağ xanlığı Rus imperiyasının vassalı oldu. Gülüstan və Türkmənçay müqaviləsindən sonra, Rusiya dövləti qısa müddətdə İrandan, Türkiyədən erməniləri Qarabağa köçürdü və yerləşdirdi.Qarabağın çarizmin əsarətinə düşməsindən sonra ermənilərə bu ərazidə şərait yaradılmış, imtiyazlar verilmişdir.Kürəkçay müqaviləsindən sonra Qarabağ xanlığının müstəqilliyi məhdudlaşdı və xanlıq faktiki olaraq Rusiyanın tabeçiliyinə keçdi Müqavilə Qarabağ xanlığının Rusiyaya tabe olmasını və Rusiya imperiyasının Qafqazdakı mövqeyinin güclənməsini təmin etmək məqsədi daşıyırdı..Bu

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri №10, 2025*
*Səh. 307-314*

dəyişikliklər, Qarabağ xanlığının siyasi və iqtisadi həyatına ciddi təsir göstərdi. Xanlıq Rusiya ilə sıx iqtisadi və hərbi əlaqələrə girdi və regionda yeni idarəçilik ənənələri formalaşmağa başladı.Ermənilər çarizmin yaratdığı şərait nəticəsində Qarabağda möhkəmlənə bildilər. Rəsmi məlumatlara əsasən, 1828- 1830-cu illər də Şimali Azərbaycana, o cümlədən Qarabağa İrandan 40 min, Osmanlı imperiyasından 90 min erməni köçürüldü. Qeyri-rəsmi erməni köçkünləri ilə birlikdə onların sayı 200 mini ötmüşdü.(17).. Köçürülmədən sonra Qarabağın etnik tərkibində ermənilərin sayı artmağa başladı..XX əsrin əvvəllərindən erməni millətçiləri öz tarixi torpağında yaşayan azərbaycanlıları planlı surətdə qovmağa başladılar..Z.Balayan göstərirdi ki, 1828-ci ildə məşhur “Türkmənçay” müqaviləsi olmasaydı, Qriboyedov və Abovyan olmasaydı, rus əsrgərləri olmasaydı, bu gün müasir kənd və şəhərlərə çevrilən yüzlərlə yeni yaradılan erməni ocaqları olmayacaqdı ( 18 ).Nalbəndyan da təsdiq edərək yazırdı ki, erməni xalqı Dəclə və Fərat çaylarının yuxarı axarları boylarına söykənən ərazilərdə bərqərar olmuşdu. Bu ərazilərin aborigenləri isə (hetlər, hurrilər, urartulular) yüksək inkişaf etmiş xalqlar idi (19 ).Türk kəndlərindən fərqləndirə bilmək üçün, ermənilərin yerləşdiyi bu kəndlərin adına “erməni”, türk-müsəlman kəndlərinə isə müsəlman sözü əlavə edilmişdir. Bundan əlavə, “erməni”lərin yaşadıqları kəndlərin adlarına fikir verildikdə, bu adların türk-müsəlman adları olduğunu görərik:.Yenicə, Çələbiyan, Axıncı, Seylan, Genlan, Əsrik, Muğayi. Gəncə-Qarabağ vilayətində olan “erməni”lərin sayı məsələsində onların vilayət əhalisi içində nisbətinin çox cüzi və ya yox dərəcəsində olduğunu söyləməyə tam əsas verən onların vilayətin yalnız 14 kəndində məskunlaşmış olmasıdır (11 s.94 ).

Rus-İran müharibələri (1804-1813, 1826-1828) və Rus-Türk müharibələri (1806-1812, 1828-1829) dövründən sonra, Türkmənçay və Ədirmə müqavilələrindən sonra, İran və Osmanlı dövlətlərindən Şimali Azərbaycana, xüsusən Qarabağa ermənilərin kütləvi surətdə köçürülməsi sürətləndi..Tarix göstərir ki, 70 ildən çox Sovetlərin hakim olduğu vaxtda, ermənilər öz ərazilərini Azərbaycanın əraziləri hesabına artırmış və onların özlərinə məxsus olan ata- baba torpaqlarından qovulub-çıxarılmasına nail olmuşdular. 1918-ci il mayın 28-də təxminən 100 il Rusiyanın əsarəti altında olmuş Azərbaycan xalqı Şimali Azərbaycanda yeni müstəqil dövlətini yaratdı. Azərbaycan Xalq Cümhuriyyəti Qarabağ üzərində də siyasi hakimiyyəti saxladı. Həmin dövrdə yeni yaradılmış Ermənistan Respublikası (Ararat) Qarabağa qarşı əsassız ərazi iddiaları ilə çıxış etdi. Ermənilər Qarabağı ələ keçirmək məqsədi ilə əvvəllər də həyata keçirdikləri soyqırım aktlarını törətməkdə davam edirdilər. Azərbaycan hökuməti 1919-cu ilin yanvarında Şuşa, Cavanşir, Cəbrayıl və Zəngəzur qəzalarını birləşdirərək Baş Qarabağ əyaləti yaratdı.1920-ci il aprelin 28-də bolşeviklər tərəfindən işğal olunmuş Azərbaycanda sovet hakimiyyəti qurulandan bir neçə il sonra, 1920-1923-cü illərdə həyata keçirilmiş qərəzli və məqsnlü tədbirlər nəticəsində keçmiş Qarabağ xanlığı

*Azərbaycan Milli Elmlər Akademiyası M. Füzuli adına Əlyazmalar İnstitutu,* *ISSN 2224-9257*
*Filologiya məsələləri № 10, 2025*
*Səh. 307-314*

parçalandı. Azərbaycan Dağlıq Qarabağa muxtar vilayət statusu verməyə vadar edildi (17).

Nəticə. Qarabağ torpağının elmi əsaslarla tədqiqi göstərir ki, Qarabağ Azərbaycana məxsusdur.

İ. Əliyev göstərirdi ki, Dağlıq Qarabağ bizim qədim, tarixi torpağımızdır və biz mütləq o torpaqlara qayıdacağıq. Dağıdılmış bütün tarixi abidələri, evləri bərpa edəcəyik.Küçələrə Azərbaycan adlarını verəcəyik, adları dəyişdirilmiş kəndlərə öz əsl adlarını qaytaracağıq. Biz mütləq bunu edəcəyik. Çünki haqq-ədalət bizim tərəfimizdədir. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur, öz torpağımızı da heç kimə verən deyilik. Bu gün mövcud olan Ermənistan tarixi Azərbaycan torpaqlarında yaradılıbdır. Bu haqda kifayət qədər tarixi sənədlər var. İkinci erməni dövlətinin yaradılmasına biz heç vaxt imkan verməyəcəyik. Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!(20). Tarixi əsərlər, tarixi faktlar sübut edir ki, ”Qarabağ “ torpağı heç vaxt ermənilərə aid olmayıb, Azərbaycanın ayrılmaz hissəsi, tarixi torpağıdır!

## Ədəbiyyat

1.S. Sərdariniya..Qarabağ tarixin gedişində. (fars dilindən tərcümə Bakı-2022, 654 s.
2.Eyvazova R. Əfqanıstanda türk mənşəli toponimlər. Bakı, Elm, 1995,248 s.
3. Xəlilov X. D. Qarabağın elat dünyası. Bakı: Azərnəşr, 1992.- 119 s.
4.R.Yüzbaşov. Dağlıq Qarabağ Muxtar Vilayətinin toponimikası. Azərbaycan SSR EA xəbərləri.Yer haqqında elmlər seriyası. 1969. №2, s. 86-92.
5. L. Qumilyov. Qədim türklər. B: Gənclik, 1993, 536 s
6. K. Şükürov.Qarabağ dünən, bu gün və sabah 6-cı elmi-əməli konfransının materialları. Bakı, .
7. A. Məmmədov. Qarabağ, onun qədim tayfalan və toponimləri.- Bakı: Mütərcim, 2008, - 480 s.
8.Y. Mahmudov, K. Şükürov. Qarabağ. Real tarix, faktlar, sənəd. Bakı. «Təhsil», 2009. 144 səh.
9. Q..Qeybullayev. Qarabağ / Etnik və siyasi tarixinə dair. Bakı., 1990,248 s
10. A.Nağı . Qarabağ müharibəsi. Bakı , 2014, 121 s.
11.Manuk Abeqyan. «İstoriya armyanskoy literaturı». Yerevan.1975.
12. İ H..Əliyev. Dağlıq Qarabağ: -Tarix, faktlar, hadisələr.Bakı., Elm, 1989, 120 s.
13.. Gəncə-Qarabağ əyalətinin müfəssəl dəftəri. B., Şuşa nəşriyyatı, 2000, 576 s.
14.Степан Дадаян, Политическая история Арцаха-Карабаха от Хамсы до автономии, факты и вымыслы, Степанакерт, 2017..
15 Q.Çaxmaqlı.Ermənilik İrqi düşüncənin fəsadları ermənilərin mənşəyi.Bakı , 2020, 128 s.
16. http://www.shirvan-ih.gov.az/az/news/1634.html
17 https://az.wikipedia.org/wiki/Erm%C9%99ni_% C9%99halisinin_tarixi_ miqra-siyas%C4%B1

18. Z. Balayan. “Ocaq” .1984 , 273 s.
19.. Nalbandian L., The Armenian Revolutionary Movement, Los Angeles, 1963.
20..https://p1 20.http://tovuz-ih.gov.az/az/news/719.html

**Айнур Ширин гызы Мирзоева**

**Историческая общественно-политическая ситуация и этнический состав Карабаха**

**Резюме**

Изучение ономастики, истории, социально-политической ситуации и этнического состава Карабаха является одним из важных вопросов, стоящих перед азербайджанскими лингвистами и историками. «Карабах» — один из исторических регионов, ставший центром внимания всего мира и глазом Азербайджана. Исторически Карабах входил в состав первого государственного образования, созданного в Северном Азербайджане — Кавказской Албании. Название Карабах образовано от сочетания слов «кара» и «баг» на азербайджанском языке. Историческими названиями Карабаха были «Ути», «Арран» («Арран») и «Аран». Представлены мнения ученых об армянах, поселившихся в Карабахе, и доказано, что армяне поселились на этой земле позже. История и культура Карабаха очень древние.

**Ключевые слова: Азербайджан, топонимы, Карабах, история Карабаха, этнический состав**

**Aynur Shirin gizi Mirzayeva**

**History, socio-political situation and ethnic composition of Karabakh**

**Summary**

The study of the onomastics, history, socio-political situation and ethnic composition of Karabakh is one of the important issues facing Azerbaijani linguists and historians. "Karabakh", which has become the center of attention of the world and is the eye of Azerbaijan, is one of the historical regions. Historically, Karabakh was part of the first state entity established in Northern Azerbaijan - Caucasian Albania. The name Karabakh is formed from the combination of the words "qara" and "bagh" in the Azerbaijani language. The historical names of Karabakh were "Uti", "Arran" ("Arran") and "Aran". The opinions of scientists about the Armenians settled in Karabakh are shown and it is proven that the Armenians were settled in this land later. The history and culture of Karabakh are very ancient.

**Keywords: Azerbaijan, toponyms, Karabakh, history of Karabakh, ethnic composition**

**Rəyçi: prof. İ.Cəfərov**